48 (1303) 14-20 dekabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCAN VAR OLDUQCA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN İDEYALARI YAŞAYACAQ



Müasir və müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 20 il ötür. Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri Xiyabana gələrək, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib.

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin dönməz xarakter alması, milli şüurun dirçəlişi, iqtisadiyyatın inkişafı, ordu quruculuğu bu dövrün əsas mahiyyətini təşkil edir.

Xalqımız Ulu Öndərin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş Azərbaycan xalqı xilasına, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri Xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə əbədi ehtiramdan xəbər verir. Azərbaycan xalqı Heydər Əliyev ideologiyasına da, ideallarına da sadiqdir. Bunun davam etdirilməsi sosial çağırışdır. Məhz bu çağırışa cavab olaraq Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edildi.

Sərəncamda da qeyd olunduğu kimi, Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Bu gün Azərbaycan Ümummilli Liderin müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Xalqımız Ulu Öndərin layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə inanır və onu dəstəkləyir.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "***Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun***".

Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. Üçrəngli bayrağımız yenidən bütövləşən Vətən torpağında qürurla dalğalanmağa başladı.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Dövlətimizin başçısı, qalib sərkərdə İlham Əliyev böyük və müdrik xalqımıza bu il sentyabrın 19-da növbəti Qələbənin sevincini yaşatdı. Dövlət bayrağımızı əzəli və əbədi torpaqlarımızda - Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda ucaltmaqla xalqımızın arzularını çin etdi. Müstəqil Azərbaycanın suverenliyi tam bərpa olundu.

Görkəmli dövlət xadimi Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırmaqdadır.

Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcək.

## AZƏRBAYCAN EV SAHİBLİYİ EDƏCƏK

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar rəsmi sosial şəbəkə hesablarında paylaşım edib.

**Paylaşımı təqdim edirik:** *"Azərbaycan iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni sistemli olaraq dəstəkləyir və enerji səmərəliliyi ilə bağlı tədbirlər görür. Təmiz ətraf mühit və yaşıl inkişaf bizim milli prioritetlərimizdir. Bərpa olunan enerji Azərbaycanda geniş vüsət almağa başlayır. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) 2024-cü ildə ev sahibliyi etməyimiz iqlim dəyişikliklərinə qarşı mübarizə üzrə qlobal səylərə öz töhfəmizi vermək qətiyyətimizdən irəli gəlir. Azərbaycanın namizədliyinə verilən dəyərli dəstəyə görə bütün ölkələrə səmimi təşəkkürümü bildirirəm.*

*Biz COP29 sessiyasının uğurlu hadisəyə çevrilməsi üçün əlimizdən gələni edəcəyik.*

*BƏƏ-də COP28-in yüksək səviyyədə təşkil edilməsinə görə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana minnətdarlığımı bildirir və iqlimlə bağlı birgə tədbirlərimizi davam etdirməyimizi səbirsizliklə gözləyirəm".*

## “SERBİYA-AZƏRBAYCAN ƏLAQƏLƏRİ DİNAMİK ŞƏKİLDƏ İNKİŞAF EDİR”

"Serbiya-Azərbaycan əlaqələri sürətlə və dinamik şəkildə inkişaf edir".

Bu sözləri Prezident İlham Əliyev dekabrın 10-da Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində çıxışı zamanı söyləyib.

***"Biz strateji tərəfdaşıq. Çünki strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanmışdır və sözdə, sənəddə və əməldə bu yüksək statusa sadiqliyimizi göstəririk"***, - deyə dövlətimizin başçısı bildirib.




## “BU İL AZƏRBAYCANIN AVROPA MƏKANINA QAZ İXRACI 12 MLRD. KUBMETRƏ ÇATACAQ”

"2021-ci ildə bizim Avropa məkanına qaz ixracımız 8 milyard kubmetrdən bir qədər çox olmuşdursa, bu il bu təxminən 12 milyard kubmetrə çatacaq".

Bu sözləri Prezident İlham Əliyev Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində çıxışı zamanı deyib.

Bunun Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil etdiyini vurğulayan dövlətimizin başçısı deyib ki, 2027-ci ilə qədər Avropaya göndərilən qazın həcmi iki dəfə artmalıdır və biz inamla bu hədəfə doğru gedirik.

Azərbaycanın bütövlükdə enerji strategiyası uğurla icra edilir. Bizim tərəfimizdən irəli sürülmüş və icra edilmiş layihələr Avrasiyanın enerji xəritəsini böyük dərəcədə yenidən tərtib etmişdir.

***"Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərləri bu gün Azərbaycan neftini Aralıq və Qara dəniz bazarlarına çatdırır. Cənub Qaz Dəhlizi - uzunluğu 3500 kilometr olan nəhəng infrastruktur layihəsi Avropanın enerji təhlükəsizliyinə çox böyük töhfə verir"***, - deyə dövlətimizin başçısı vurğulayıb.

## “SERBİYA-BOLQARISTAN QAZ İNTERKONNEKTORU BİZİM ÜÇÜN ÇOX VACİBDİR”



"Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru bizim üçün çox vacibdir. Prezident Radevin də qeyd etdiyi kimi, təchizatın şaxələndirilməsi Serbiya və Bolqarıstana daha çox alternativ imkanı verir".

Bu sözləri Serbiyanın Niş şəhərində Azərbaycanın media nümayəndələrinə müsahibəsində Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç söyləyib.

**O, həmçinin qeyd edib:** "Bu, həm də Serbiyanın Niş, Dimitrovqrad, Bela Palanka və Pirot kimi mühüm şəhərlərinin enerji təhlükəsizliyini möhkəmləndirəcək. Bizim gələcəkdə 6 və ya 7 LNG terminalından qaz almaq imkanımız da olacaq ki, bu da Serbiyanın ümumi enerji təhlükəsizliyində mühüm rol oynayır".

## “GƏLƏCƏK PLANLARIMIZ TƏBİİ Kİ, QAZ TƏCHİZATININ COĞRAFİYASINI DAHA DA GENİŞLƏNDİRMƏKDİR”

"Azərbaycan, sözün əsl mənasında, etibarlı tərəfdaşdır, dostluq ənənələrinə həmişə sadiqdir və dostluğu yüksək qiymətləndirir".

Bu fikirləri Prezident İlham Əliyev Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində çıxışı zamanı səsləndirib.

***"Məhz dostluq, qarşılıqlı anlaşma, strateji tərəfdaşlıq üzərində qurulmuş əlaqələr bir çox ölkələrin maraqlarını təmin edir. Qaz sahəsində əməkdaşlıq, eyni zamanda genişmiqyaslı, regional əməkdaşlığa da güclü zəmin yaradır"***, - deyə dövlətimizin başçısı əlavə edib.

* * * *

**Prezident İlham Əliyev Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində çıxışı zamanı ölkəmizin enerji sahəsində gələcək planları barədə məlumat verib.**

**Dövlətimizin başçısı bununla bağlı deyib: "Gələcək planlarımız təbii ki, qaz təchizatının coğrafiyasını daha da genişləndirməkdir. Gələcəkdə Avropa məkanında yeni yaradılacaq interkonnektorlar vasitəsilə yeni ölkələrin bazarlarına çıxmaqdır və əsas bizim hədəfimiz bərpa olunan enerji növləri ilə bağlıdır. 10 qiqavat bərpa olunan enerji növlərinin yaradılması üzrə Azərbaycan tərəfindən investorlarla sazişlər və anlaşma memorandumları imzalanmışdır".**

## “AZƏRBAYCAN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPADA TƏBİİ QAZ TƏCHİZATININ ŞAXƏLƏNDİRİLMƏSİNDƏ HƏLLEDİCİ ROL OYNAYIR”

"Azərbaycan Mərkəzi və Şərqi Avropada təbii qaz təchizatının şaxələndirilməsində həlledici rol oynayır. Biz bunu yüksək qiymətləndiririk".

Bu sözləri Serbiyanın Niş şəhərində Azərbaycanın media nümayəndələrinə müsahibəsində Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev söyləyib.

Azərbaycanın COP29-a ev sahibliyinə namizədliyinin Bolqarıstan tərəfindən dəstəklənməsi ilə bağlı sualı da cavablandıran R.Radev qeyd edib: ***"Bildiyiniz kimi, Rusiya Avropa ölkələrindən hər hansı birinin namizədliyinə qadağa qoyub. Yeganə həll yolu Azərbaycan və ya Ermənistanın ev sahibi olmasıdır. Biz sizin ölkənizin namizədliyinə sevinirik və onu dəstəkləyirik"***.



# “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında yeni müəssisələr fəaliyyətə başlayacaq

“Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında 2024-cü ildə fəaliyyətə başlaması planlaşdırılan 2 müəssisə tərəfindən ümumilikdə Sənaye Parkına 11 milyon manatdan çox investisiyanın yatırılması, 150-ədək iş yerinin yaradılması nəzərdə tutulur.

Trend xəbər verir ki, 2024-cü ildə Cəbrayıl rayonunda yerləşən “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında 2 müəssisənin fəaliyyətə başlaması planlaşdırılır.

Belə ki, 2024-cü ilin oktyabrında fəaliyyətə başlaması planlaşdırılan "İmprotex Qarabağ Sənaye Kompleksi" MMC Sənaye Parkının 5 hektar ərazisində minatəmizləyən, xüsusi təyinatlı texnika və metal məmulatların istehsalını həyata keçirəcək müəssisənin qurulması istiqamətində artıq işlərə başlayıb. Hazırda ərazidə planlama, qazma işləri görülür.

İnvestisiya həcmi 7,4 milyon manat olan müəssisədə 124 nəfərin işlə təmin edilməsi nəzərdə tutulur.

Müəssisədə 2 model minatəmizləyən texnikanın (piyada əleyhinə minatəmizləyən “Revival P” və Revival T” tank əleyhinə minatəmizləyən texnikaların) istehsalı həyata keçiriləcək.

2024-cü ildə Sənaye Parkının ərazisində “Holcim Azerbaijan” ASC tərəfindən birinci mərhələdə həcmi 2 min ton olan sement terminalının istifadəyə verilməsi planlaşdırılır. İkinci mərhələdə isə şirkət tərəfindən əmtəə beton və quru yapışdırıcı istehsalını həyata keçirəcək zavod inşa ediləcək. İnvestisiya dəyəri 3,4 milyon manat olan müəssisədə 20-dən çox insan daimi işlə təmin olunacaq. İstehsal ediləcək məhsulların daxili bazarda satışı həyata keçiriləcək.

# Bərdə-Ağdam dəmir yolunda işlərin 85 faizi tamamlanıb



“Qarabağda “Azərbaycan Dəmir Yolları” QSC tərəfindən iki layihə yerinə yetirilir. Bunlardan biri Bərdə-Ağdam layihəsidir ki, artıq layihənin böyük hissəsi tamamlanıb”.

Bunu “Azərbaycan Dəmir Yolları” (ADY) QSC-nin sədri Rövşən Rüstəmov jurnalistlərə açıqlamasında deyib”.

Onun sözlərinə görə, Ağdam şəhərinə qədər dəmir yolu xətti çəkilib və işlərin bütövlükdə 85 faizi icra olunub. QSC sədri onu da əlavə edib ki, son qalan işlər Təzəkənd, Köçərli və Bərdə stansiyaları ilə bağlıdır.

*“Hazırda onların da tikintisi həyata keçirilir. Yaxın vaxtlarda tikinti işləri yekunlaşacaq. Ağdam avtovağzal və dəmir yolu komplekslərinin də tikintisinə başlanılması üçün layihə razılaşdırılma işləri həyata keçirilir. Horadiz-Ağbənd layihəsinin isə 45 faizi həyata keçirilib. Layihə sürətlə davam etdirilir. Layihənin tam yekunlaşdırılması 2025-ci il üçün nəzərdə tutulub. Hazırda 72-ci kilometrə qədər dəmir yolu xətti çəkilib”*, - deyə R.Rüstəmov qeyd edib.

# Azərbaycanda orta maaş açıqlandı

Orta aylıq nominal əməkhaqqı oktyabrda 1,3 manat azalıb, son 12 hesabat ayında isə 93,2 manat artıb.

Dövlət Statistika Komitəsi iqtisadiyyatda işləyənlərin sayı və əməkhaqqısı barədə məlumatları açıqlayıb.

2023-cü ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,3 faiz artaraq 921,1 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqısı daha yüksək olmuşdur. 2023-cü ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqısı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,2 faiz artaraq 919,8 manat olmuşdu.

2022-ci ilin yanvar-oktyabr aylarında isə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 14,5 faiz artaraq 827,9 manat olmuşdu. Beləliklə, orta aylıq nominal əməkhaqqı oktyabrda 1,3 manat azalıb, son 12 hesabat ayında isə 93,2 manat artıb.

2023-cü il noyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 729,4 min nəfər olmuş, onlardan 896,9 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 832,5 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,1 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 14,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

# Azərbaycan iqtisadiyyatı 0,8 faiz artıb

Cari ilin yanvar-noyabr aylarında ölkədə 110,2 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz çox ümumi daxili məhsul istehsal olunub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,6 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 3,2 faiz artıb.

ÜDM istehsalının 41,2 faizi sənaye, 9,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,0 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 18,0 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,4 faizini təşkil edib.

Əhalinin hər nəfərinə düşən ÜDM 10856,0 manata bərabər olub.




# Pərakəndə ticarət dövriyyəsi 3,6 faiz artıb

2023-cü ilin yanvar-noyabr aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 51,3 milyard manatlıq, o cümlədən 28,7 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 22,6 milyard manatlıq qeyri-ərzaq malları satılıb.

Dövlət Statistika Komitəsindən bildirilib ki, 2022-ci ilin yanvar-noyabr aylarıilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,6 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2,4 faiz, qeyri-ərzaq malları üzrə 5,1 faiz artıb. 2023-cü ilin yanvar-noyabr aylarında alıcıların pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 51,7 faizi ərzaq məhsullarının, 4,2 faizi içkilər və tütün məmulatlarının, 14,7 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,5 faizi avtomobil benzini və dizel yanacağının, 4,9 faizi elektrik malları və mebellərin, 2,2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,1 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 15,7 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

Hesabat dövründə qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların dəyəri əvvəlki ilin eyni dövrü ilə müqayisədə real ifadədə 3,7 faiz artaraq ümumi pərakəndə ticarət dövriyyəsinin 99,7 faizini təşkil edib.

# “Bəzi məhsullarda “halal” sözündən istifadə edilir ki, bu aldadıcıdır”



“Halal standartlar dövrün ən aktual məsələlərindəndir. Halal sertifikatı verən orqan mütləq şəkildə akkreditasiya olunmalıdır”.

Bunu AZƏRTAC-a müsahibəsi zamanı Azərbaycan Standartlaşdırma İnstitutunun baş direktoru İlham Bayramov bildirib.

Onun sözlərinə görə, bu akkreditasiyaya dair SMIIC-in öz standartları var. Ancaq akkreditasiya tələblərinə cavab verən və akkreditasiya olunan orqan halal məhsula dair uyğunluq sertifikatı verə bilər.

*“Yalnız bundan sonra halal məhsullara dair halal nişan və halal sertifikatı verən orqanın nişanı vurula bilər. Təəssüf ki, bazarda bu sahədə sui-istifadə hallarına yol verilir. Bəzi məhsullarda “halal” sözündən istifadə edilir ki, bu, aldadıcıdır. İstehlakçıların aldadılması qanunvericiliklə qanun pozuntusu sayılır və cərimə tətbiq olunur. Hazırda AZSTAND Halal Akkreditasiya Qurumundan akkreditasiya olunma mərhələsindədir. Eyni zamanda, biz həm ölkə daxilində, həm halal məhsul istehlak edən İslam ölkələrinə Azərbaycandan halal məhsulların ixracına şərait yaratmaq üçün Qazaxıstanın Standartlaşma İnstitutu və Türk Standartlar İnstitutu ilə müqavilələr imzalamışıq. Bu müqavilələr əsasında biz həmin qurumlarla birlikdə ixrac olunan məhsulların sertifikatlaşmasını həyata keçirə bilirik. Ölkədə akkreditasiya olunmuş qurumların sayı artırılmalıdır. Akkreditasiya olmaq o qədər də sadə proses deyil. İctimai maarifləndirmə genişləndirilməlidir ki, istehlakçılarımız aldanmasın”*, - deyə İlham Bayramov əlavə edib.

# İstehlakçılara 140,3 milyon manat ƏDV məbləği geri qaytarılıb

Azərbaycanda uğurla tətbiq edilən “ƏDV geri al” layihəsi iqtisadiyyatın şəffaflaşdırılması istiqamətində mühüm nəticələr verməkdədir.




Trend xəbər verir ki, bu barədə Dövlət Vergi Xidmətinin yaydığı məlumatda deyilir.

Bildirilib ki, 2023-cü ilin yanvar-noyabr aylarında fiziki şəxs olan istehlakçılar tərəfindən ölkə ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilmiş xidmətlərə görə ödənilmiş ƏDV-nin 140 milyon 288 min manatdan çoxu geri qaytarılıb.

Qeyd edək ki, ölkəmizdə bir sıra sahələrdə malların alışı və xidmətlərin göstərilməsi zamanı ƏDV məbləğinin nağdsız ödənişlər üzrə 17,5 faizi, nağd ödənişlər üzrə 5 faizi müvəkkil bank tərəfindən istehlakçılara geri qaytarılır.

# Vergi ödəyicilərinə 1 milyondan çox xidmət göstərilib




Cari ilin yanvar-noyabr ayları ərzində vergiödəyicilərinə xidmət mərkəzlərində ümumilikdə 591 min 630 şəxs qəbul edilib və onlara 1 milyon 39 min 162 sayda xidmət göstərilib.

Dövlət Vergi Xidmətindən bildirilib ki, bunlardan 287 minə yaxını şifahi (vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar sualların cavablandırılması), 239 mindən çoxu isə elektron xidmətlərlə (bəyannamələrin və hesabatların, müxtəlif ərizələrin tərtibatına və elektron formada göndərilməsinə köməklik göstərilməsi) bağlı olub.

Ümumi elektron xidmətlərin 88,2 faizini 10 xidmət növü (şifahi və hazır sənədlərin verilməsi ilə bağlı xidmətlər istisna olmaqla) təşkil edib.

Cari ilin yanvar-noyabr ayları ərzində vergiödəyicilərindən daxil olmuş 27 minə yaxın yazılı müraciət cavablandırılıb, onlara 10 milyona qədər məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub), mobil telefon nömrələrinə 1 milyon 590 minədək SMS göndərilib. Dövr ərzində 2982 vergiödəyicisinin iştirakı ilə 263 görüş keçirilib, 4721 vergiödəyicisinə ünvanlı xidmət göstərilib.

İlin əvvəlindən 242 min 737 müraciət üzrə 371 min 901 “ASAN İmza” sertifikatı verilib. Həmçinin 18,9 mindən çox vergiödəyicisinin mövcud sertifikatının yenilənməsi qüvvədə olan “ASAN İmza”, onlara yeni sertifikatların verilməsi isə elektron xidmətlər vasitəsilə həyata keçirilib.

# Dövlət büdcəsinə vergi daxilolmaları 15.3 milyard manatı keçib



Bu ilin 11 ayında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 4.1% artaraq 15 milyard 337.7 milyon manat olub. Bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 18.9% artaraq 9 milyard 015.8 milyon manat təşkil edib.

Bu haqda iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.

“Ölkəmizdə aparılan səmərəli vergi siyasəti qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının yüksək dinamikasını təmin etməklə dayanıqlı iqtisadi artıma əhəmiyyətli töhfə verir”, – nazir əlavə edib.

# ƏBƏDİYAŞAR LİDER

***Müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 20 il ötür. Böyük şəxsiyyətin fiziki yoxluğundan illər ötsə də, xalqımız öz əbədi rəhbərini hər zaman böyük minnətdarlıqla, dərin ehtiramla yad edir. Zaman ötdükcə, illər bir-birinə calandıqca, Azərbaycan öz yüksəlişinin və müvəffəqiyyətlərinin miqyasını artırdıqca hər birimiz Heydər Əliyev şəxsiyyətinin əzəmətini daha aydın görür, onun müəyyən etdiyi siyasi xəttin, ölməz ideyalarının dəyərini daha dərindən anlayırıq. Öz xalqının önündə addımlamaq, onu ən çətin sınaqlardan keçirmək, onun gələcəyi üçün möhkəm bünövrə yaratmaq missiyasını şərəflə yerinə yetirən bu dahi şəxsiyyətin əbədiyaşar ideyaları bizim milli sərvətimizdir. Bu irsin Prezident İlham Əliyev tərəfindən yaşadılmasının, davam etdirilməsinin və zənginləşdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan dövləti dövlətçilik tarixinin ən qüdrətli dövrünü yaşayır.***

**Bütün fəaliyyətini Azərbaycana həsr edən böyük şəxsiyyət**

Ümumiyyətlə, tarix də sübuta yetirib ki, xalqların və millətlərin taleyində tarixi şəxsiyyətlərin, görkəmli siyasətçilərin müstəsna rolu danılmazdır. Liderlərin, müdrik rəhbərlərin dövlətlərin tarixində və inkişafında rolu barədə çox nümunələr qeyd etmək olar. İstənilən dövlətin keçdiyi yola nəzər salsaq, onun həm yaranmasında, həm formalaşmasında, həm də inkişafında lider amilinin nə qədər böyük rol oynadığını görərik. Çox keçmişə getmədən, Türkiyədə Atatürkün, Böyük Britaniyada Uinston Çörçillin, Fransada Şarl de Qollun fəaliyyətini misal göstərməklə deyə bilərik ki, dövlətin yüksəlişində, dünya səhnəsinə çıxmasında, müasir sivilizasiyanın parametrlərinə cavab verə bilməsində, beynəlxalq birlikdə özünə yer tutmasında fenomen şəxsiyyətlərin rolu böyükdür. XX əsr Azərbaycan tarixi isə Heydər Əliyevin timsalında hələ ötən əsrin 70-80-ci illərindən lider amilinin dövlətin və xalqın tarixində, onun gələcəyinin formalaşmasında, inkişafında, beynəlxalq aləmdə özünü sübut etməsində ən vacib amil olduğunu təsdiq edir. Heydər Əliyev kimi dahilər mübarizələri və əməlləri ilə mənsub olduqları xalqların qürur doğuran tarixini yaratmaqla bərabər, həm də inkişaf salnaməsinin müəllifinə çevrilirlər, tarixi yaradaraq, eyni zamanda onun gərdişini nizamlamağa qadir olurlar. Ulu Öndərimizin Azərbaycanın müdrik rəhbəri kimi çoxşaxəli fəaliyyəti, Vətən və xalq qarşısındakı ölçüyəgəlməz misilsiz xidmətləri dahi şəxsiyyətlərin tarixdəki rolunu əyani şəkildə təsdiqləyən ən dəyərli nümunələrdəndir.

Heydər Əliyevin siyasi həyat yolu, fəaliyyəti xalqımızın yaddaşına ona görə əbədi həkk edilib ki, Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə həyatının başlıca qayəsi kimi öz Vətəninə xidmət edib. Ona görə belə bir gündə hər birimiz bir daha Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin ucalığı barədə fikir söyləməyə ehtiyac duyur, bunu mənəvi borc kimi qəbul edirik.

Lakin bu da bir həqiqətdir ki, Ulu Öndər Heydər Əliyev barədə nə qədər yazsaq, nə qədər danışsaq da, onun fəaliyyətini, dövlət və xalq qarşısındakı xidmətlərini tam şəkildə əhatə edə bilmərik. Çünki həm Heydər Əliyevin özü nəhəng şəxsiyyət idi, həm də rəhbər kimi fəaliyyət göstərdiyi 35 ilə yaxın dövrdə gördüyü işlərin miqyası olduqca böyük idi. Təsadüfi deyil ki, Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlər birmənalı olaraq yüksəliş və quruculuq, Azərbaycanın hərtərəfli və sürətli tərəqqi mərhələsi kimi səciyyələndirilir. Eyni zamanda, respublikamızın ən çətin anlarında Heydər Əliyevə ehtiyac duyulub və üzərinə düşən böyük missiyanı uğurla yerinə yetirən Ulu Öndər hər zaman ona bəslənilən ümidləri layiqincə doğrulub. Heydər Əliyev irsinin hər bir istiqaməti elm ictimaiyyəti üçün aktual məsələlərdir və bunların araşdırılması, tədqiq olunması bundan sonra da davam etdiriləsidir. Qeyd etdiyim kimi, Heydər Əliyevin fəaliyyəti boyu gördüyü işlərin miqyası olduqca böyükdür. Ona görə bu yazıda Ulu Öndərin siyasi və dövlətçilik fəaliyyətinin bir neçə aspektinə nəzər yetirmək istəyirəm. Cəmi bir neçə tarixi faktların fonunda görəcəyik ki, Heydər Əliyev dühasının Azərbaycan tarixindəki yeri və rolu nə qədər böyük və əzəmətlidir.

**Heydər Əliyev erməni millətçiliyinin baş qaldırmasına imkan verməmişdi**

2020-ci ildə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, 2023-cü ilin sentyabr ayında isə Qarabağda erməni separatizminə son qoyulması müasir tariximizin ən böyük hərbi-siyasi hadisələridir. Prezident İlham Əliyev öz qətiyyəti, müdrikliyi və uzaqgörənliyi ilə Qarabağ probleminə birdəfəlik son qoydu.

Bu hadisələr indi bizim baş mövzumuzdur. Azərbaycanın zəfəri barədə bundan sonra da çox deyiləcək, çox yazılacaq, bu qalibiyyət siyasət, iqtisadiyyat, sosial, hərbi, mədəniyyət və digər sahələrdə elmi araşdırmalara vəsilə olacaq. Lakin biz bu gün artıq keçmişdə qalmış Qarabağ münaqişəsi və erməni separatizmi barədə danışarkən hadisələrə yalnız son 30 ilin kontekstindən baxmalı deyilik. Çünki Ermənistan onilliklər boyu bu ərazinin Azərbaycandan qoparılmasına çalışmış, hələ sovet dövründən Qarabağda erməni separatizmi baş qaldırmışdı. Məhz Heydər Əliyevin Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərliyi dövründə erməni separatizminin qarşısı alınmışdı.

Azərbaycana rəhbərliyə başladıqdan sonra Heydər Əliyev Qarabağda milli mənafelərin qorunması, dövlət təhlükəsizliyinin təmin edilməsi, Ermənistandakı millətçi dairələrin təxribatlarının qarşısının alınması istiqamətində xüsusi olaraq məqsədyönlü və təsirli tədbirlər görmüşdür. Hələ 1967-ci ildə DQMV ərazisində üç azərbaycanlının avtomobilinin içində yandırılması nəticəsində başlayan milli qarşıdurma elementlərini büruzə verən separatizm qığılcımlarının nəticəsini əvvəlcədən görən ölkə rəhbəri qətiyyətli addımlar atdı.

Heydər Əliyevin xüsusi diqqət yetirdiyi məsələlərdən biri də Qarabağın erməniləşdirilməsinin qarşısını almaq idi. Heydər Əliyevin həyata keçirdiyi tədbirlərlə Qarabağın azərbaycanlılar yaşayan məntəqələrinin siması xeyli dəyişdi. Xankəndidə Pedaqoji İnstitut açıldı və orada Azərbaycan bölməsi yaradıldı.

Heydər Əliyev Qarabağın dağlıq və aran hissələrinin təsərrüfat, iqtisadi cəhətdən daha sıx birləşdirilməsinə çalışırdı. Bu, səbəbsiz deyildi. Ermənilər Qarabağın Azərbaycanın digər rayonları ilə guya iqtisadi və təsərrüfat əlaqələrinin olmadığını, əhalinin ümumi sayında ermənilərin çoxluğunu əsas gətirərək, vilayətin Ermənistana birləşdirilməsini tələb edirdilər. Onların bu niyyətlərinin qarşısını almaqda Qarabağın digər rayonlarımızla əlaqəsini daha da sıxlaşdırmaq, strateji əhəmiyyətli kommunikasiyaların sayını artırmaq böyük rol oynaya bilərdi. Bu məqsədlə atılan addımlardan biri Ağdam-Xankəndi dəmiryolu xəttinin çəkilişi oldu.

Sovet illərində Şuşa şəhərinin də dirçəldilməsi və qədim Azərbaycan şəhəri kimi inkişaf etdirilməsi məhz Heydər Əliyevin respublikamıza rəhbərliyə başlamasından sonra mümkün oldu. 1969-cu ildə Azərbaycana rəhbərliyə başlayandan dərhal sonra Ulu Öndər Şuşanı abadlaşdırmaq, dağıdılmış, yandırılmış evləri bərpa etmək, eyni zamanda tarixi abidələri qoruyub saxlamaq və böyük muzeyə çevirmək üçün əhəmiyyətli işlərin görülməsinə dair göstərişlər vermişdi.

Ermənilərin əzəli Azərbaycan torpaqlarına çox yaxın tarixdə köçürüldüyünü onların özlərinin əli ilə əbədiləşdirmək Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi nəticəsində mümkün olmuşdur.



Belə ki, Dağlıq Qarabağ erməniləri 1978-ci ildə əvvəlki Mardakert - indiki Ağdərə rayonunun Marağa kəndində ucaltdıqları abidə ilə bu torpaqlara 150 il əvvəl gəldiklərini təsdiqləmişlər.

Bütövlükdə, Heydər Əliyevin qətiyyəti nəticəsində ötən əsrin 80-ci illərinin sonlarına qədər ermənilərin Dağlıq Qarabağ və Azərbaycanın digər ərazilərinin Ermənistana birləşdirilməsi ilə bağlı niyyətləri baş tutmamışdı. 1985-ci ilin fevralında Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçyan Sov.İKP MK-nın Siyasi Bürosuna qondarma "erməni soyqırımı"nın 60 illiyi ilə bağlı 24 aprel tarixinin hər il SSRİ-də "Soyqırımı qurbanlarının xatirə günü" kimi qeyd olunması təklifi ilə müraciət etmişdi. Siyasi Büronun iclasını aparan M.S.Qorbaçov buna razılıq versə də, Heydər Əliyevin, N.Tixonovun və A.Qromıkonun sərt və prinsipial mövqeyi ilə qarşılaşmışdı.

Heydər Əliyev ermənilərin bütün məkrli planlarının qarşısını qətiyyətlə alırdı. Xalqımızın dahi oğlunun qətiyyətli mövqeyi M.Qorbaçov başda olmaqla SSRİ rəhbərliyində olan erməni millətçilərini çox narahat edirdi. Çünki Heydər Əliyev onların öz çirkin niyyətlərini həyata keçirmələri üçün ciddi bir maneə idi. Yalnız Heydər Əliyevin 1987-ci ilin oktyabrında Sov. İKP MK Siyasi Bürosunun və şəxsən baş katib M.Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefasından sonra xalqımıza qarşı erməni ekspansiyasının növbəti mərhələsi başladı. Xalqımızın dahi oğlunun ermənipərəst qüvvələr tərəfindən siyasi fəaliyyətdən uzaqlaşdırılıb təzyiq və təqiblərə məruz qalması Dağlıq Qarabağı Ermənistana birləşdirməyə çalışan erməni-daşnak qüvvələrinə öz məkrli niyyətlərini həyata keçirmək fürsəti verdi. Prezident İlham Əliyev həmin dövrü təhlil edib səciyyələndirərkən demişdir: ***"Heydər Əliyevin istefasından sonra Azərbaycanın problemləri başladı. İki həftə keçmədən erməni separatçıları məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb, Ermənistanın tərkibinə verilməlidir. Beləliklə, Dağlıq Qarabağ probleminin əsası qoyuldu, birinci addım atıldı. Əfsuslar olsun ki, o vaxtkı sovet rəhbərliyi həmin separatçıların fəaliyyətinə heç bir məhdudiyyət qoymadı, heç bir reaksiya vermədi və nəticə etibarilə bu meyillər Sovet İttifaqının dağılmasına gətirib çıxardı".***

Heydər Əliyev bütün vəzifələrindən istefa verdikdən sonra da öz xalqının yanında idi. Xüsusilə qeyd edilməlidir ki, Heydər Əliyevin 1990-cı il yanvar ayının 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, 20 Yanvar faciəsi ilə bağlı etiraz səsini ucaltması, daha sonra həmin ilin iyul ayında Naxçıvana gəlişi respublikamızdakı milli azadlıq mücadiləsinə təkan vermişdi. Heydər Əliyev o dövrdə ermənilərin Naxçıvanla bağlı işğalçı planlarının qarşısını qətiyyətlə almışdı.

Bu gün çox haqlı olaraq torpaqlarımızın işğaldan azad edilməsini Heydər Əliyev ideyalarının həyata vəsiqə alması kimi dəyərləndiririk. Çünki torpaqlarımızın azad edilməsinə hesablanmış hazırlıq işləri dahi strateq kimi Heydər Əliyevin Azərbaycanın inkişafı ilə bağlı müəyyən etdiyi siyasi kursun uğurlu davamının məntiqi nəticəsi idi. Bu kurs isə 1993-cü ildən başlamışdı və ilkin olaraq Azərbaycan üçün olduqca əlverişsiz bir şəraitdə Füzuli istiqamətində işğal olunmuş torpaqlarımızın azad edilməsi ilə nəticələnmişdi. Sonrakı dövrdə isə Heydər Əliyevin böyük uzaqgörənliklə nail olduğu atəşkəs Azərbaycan torpaqlarının azad edilməsi üçün kompleks şəkildə – yəni iqtisadiyyatımızı inkişaf etdirməklə, ordumuzu gücləndirməklə, o cümlədən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin maraqlarına uyğun beynəlxalq hüququ təmin etməklə hazırlıq işlərinin aparılması üçün tarixi zəmin yaratdı.

Bu gün dönüb geriyə baxanda görürük ki, müxtəlif istiqamətlərdə aparılan hazırlıq işləri vəhdət təşkil edərək, qələbəmizin qazanılmasına əsas vermişdir. Görünən həm də odur ki, bu hazırlıq zəncirinin hansısa bir həlqəsində olan boşluq gələcəkdə Azərbaycanın hərbi yola əl atmaq məcburiyyətində qalacağı təqdirdə ciddi problmlər yarada bilərdi. Amma bu hazırlıq işlərinin təməllərini müəyyən edən Heydər Əliyev idi. Ötən illərin mənzərəsi isə sübuta yetirir ki, Heydər Əliyev Azərbaycanın dövlət və milli maraqlarını layiqincə və qətiyyətlə təmin edib.

1993-cü ildə siyasi hakimiyyətə gəldiyi vaxtdan Heydər Əliyev Ermənistanın işğal siyasətinə beynəlxalq hüquqi-siyasi qiymətin verilməsi üçün də yorulmadan çalışırdı. Bunun nəticəsidir ki, 1993-cü ilin iyul-oktyabr aylarında BMT Təhlükəsizlik Şurasının iclaslarında Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 3 qətnamə qəbul olunmuşdu.

Atəşkəsin əldə edilməsindən sonra Heydər Əliyev torpaqlarımızın işğaldan azad edilməsi üçün bütün səviyyələrdə mübarizə apardı. Ulu Öndər bütün mötəbər qurumların platformalarından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb edir, onların potensialından istifadə etməklə problemin həllinə çalışırdı. 1996-cı ilin dekabrında Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in növbəti zirvə toplantısı Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində respublikamızın dövlət maraqlarının tam təmin olunduğu siyasi tədbir kimi tarixə düşdü. Belə ki, artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasının baza formulu məhz Lissabonda müəyyən edildi. Qəbul olunmuş tarixi qərar sülh danışıqlarının Azərbaycanın maraqları çərçivəsində yekunlaşdırılmasını zəruri edirdi.

Heydər Əliyev ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar prosesində Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin etmişdi. Bu gün zəfərimizin və Qərbin erməni təəssübkeşliyinin fonunda dönüb tarixə baxanda görürük ki, Heydər Əliyev nə qədər böyük təzyiqlərə sinə gərmiş, Azərbaycanın mənafelərini müdrikcəsinə qorumuşdur.

**Azərbaycan dotasiyasız yaşayan respublikaya çevrildi**

Bu məqalədə toxunmaq istədiyim digər məqam Heydər Əliyevin həm sovet, həm də müstəqilliyimizin bərpasından sonra Azərbaycanın iqtisadi imkanlarından, milli sərvətlərimizdən, yerləşdiyi coğrafi məkanın strateji üstünlüklərindən düzgün istifadə ilə bağlı gördüyü işlərdir. Mənim üçün olduqca qürurvericidir ki, hələ sovet dövründə istər elmi araşdırmalar aparan iqtisadçı kimi, istərsə də dövlət strukturlarında çalışan bir şəxs kimi fəaliyyətimdə Heydər Əliyevin Azərbaycanın iqtisadi inkişafı ilə bağlı atdığı addımların şahidi və həmin proseslərin iştirakçısı olmuşam.

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi seçilən vaxt respublika iqtisadiyyatı öz göstəricilərinə görə ittifaqın digər üzvləri ilə müqayisədə çox geri idi. Obyektiv və subyektiv səbəblərə görə Azərbaycanın iqtisadi inkişafdan geri qalması fakt idi. Ölkəmiz bir çox sahələrdə - milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının artım sürətinə və əmək məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geridə qalırdı.

Lakin 1969-cu ilin yayında respublikaya enerjili və məqsədə doğru addımlayan lider - Heydər Əliyevin gəlişi ilə bu istiqamətdə çox şeylər dəyişdi, respublikanın sürətli inkişafını təmin etmək məqsədilə yeni ideyalar həyata keçirildi. Belə ki, onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə perspektiv inkişaf proqramları hazırlandı və həyata keçirildi.

Heydər Əliyevin iqtisadi sahədə nail olduğu inkişaf nəticəsində Azərbaycan tezliklə keçmiş ittifaqın ən inkişaf etmiş respublikalarından birinə çevrildi. Sənaye və kənd təsərrüfatı məhsullarının dinamik artan istehsalı, öhdəliklərin vaxtından qabaq və artıqlaması ilə yerinə yetirilməsi, xalq təsərrüfatının bütün sahələrində keyfiyyət göstəricilərinin yüksəlməsi 70-80-ci illərdə Azərbaycanın inkişafının nə qədər dinamik olduğunu əks etdirirdi. Ümumittifaq əmək bölgüsündə respublikanın payı, həmçinin Sovet İttifaqının xarici iqtisadi əlaqələrində onun iştirakı əhəmiyyətli dərəcədə artmışdı.

1969-1982-ci illər ərzində respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, xalq istehlakı mallarının istehsalı 3 dəfə, sənaye istehsalı 2,7 dəfə artmışdı. Həmin illər ərzində iqtisadiyyata əvvəki 50 ildəkindən 1,4 dəfə çox kapital qoyulmuşdu. Xalq təsərrüfatının inkişafına 21,3 milyard rubl vəsait cəlb olunmuşdu ki, bu da əvvəlki əlli illə müqayisədə 1,5 dəfədən də artıq idi. 250-dən çox iri zavod, fabrik və istehsal sexləri tikilmişdi. Azərbaycanda buraxılan 350 adda sənaye məhsulu dünyanın nə az, nə çox, düz 65 ölkəsinə ixrac olunurdu. Bu məhsulların bir çoxu nəinki Azərbaycanda, eləcə də bütün ittifaq miqyasında ilk dəfə istehsal edilən məhsullar idi. Sənaye müəssisələrinin, yaşayış binalarının, mədəni-məişət obyektlərinin tikilib istifadəyə verilməsi sosial-iqtisadi tərəqqinin yüksək mərhələsinə çatmışdı. İki milyondan çox adam öz yaşayış şəraitini yaxşılaşdırmışdı. Bu illərdə Azərbaycan üçün yeni olan bir neçə sənaye sahəsinin əsası qoyulmuşdu.

Təbii ki, bunun səbəbini, ilk növbədə Heydər Əliyevin bir rəhbər kimi yüksək mənəvi keyfiyyətlərində, ədalətli və şəffaf idarəçiliyində, öz dövlətinə və xalqına bağlılığında axtarmaq lazımdır. Azərbaycan ittifaq miqyasında dotasiyasız yaşamaq imkanları olan bir respublikaya çevrilmişdi.

Elə bu uğurlar da Heydər Əliyevin Moskvada daha yüksək vəzifəyə təyinat almasında əsas rol oynadı. Heydər Əliyev 1982-ci ildə Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü seçiləndə və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunanda Azərbaycan artıq ittifaqın inkişaf etmiş respublikalarından biri kimi tanınırdı. O illərdə çoxlu sayda sənaye müəssisələri yaradılmış, Azərbaycanın ittifaq miqyasında əhəmiyyəti artmış, o cümlədən neft sənayesinin ayrı-ayrı sahələri yenidən qurulmuşdu.

***(davamı gələn sayımızda)***

**Ziyad SƏMƏDZADƏ,**
**akademik**

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə rayon tədbiri keçirilib






07 dekabr 2023-cü il tarixində Şuşa Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə rayon tədbiri keçirilib. Tədbirdə şəhid ailələri, qazilər, Milli Məclisin deputatları, dövlət rəsmiləri, Şuşa Rayon İcra Hakimiyyətinin məsul əməkdaşları, elm və incəsənət xadimləri, rayonun idarə, müəssisə rəhbərləri, rayon ziyalıları, gənclər iştirak ediblər.

Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva “Heydər Əliyev İli” çərçivəsində respublikanın regionlarında, dünyanın müxtəlif ölkələrində yubiley tədbirlərinin keçirildiyini qeyd edib. Bildirib ki, bu yubiley Vətənimizin, hər bir azərbaycanlının bayramıdır: “Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Ümummilli Lider Heydər Əliyevin həyat amalının təntənəsidir. Azərbaycana rəhbərliyinin bütün dövrlərində Ulu Öndər Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük uğurlara nail olmuşdur. Ulu Öndər özündən sonra Azərbaycana şərəflə, ləyaqətlə və uğurla rəhbərlik edərək, xalqın rifahını, dövlətin isə mənafeyini təmin edəcək qətiyyətli lider yetişdirməklə tarixi missiya yerinə yetirdi. Heydər Əliyevin şah əsəri olan müasir, müstəqil Azərbaycan Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanaraq, regionun lider dövlətinə, etibarlı və perspektivli tərəfdaşa çevrilib, qalib ölkə adı və statusu qazanıb.”

Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə, Azərbaycan Respublikasının Xalq yazıçısı, nasir, publisist Çingiz Abdullayev Ümummilli Liderin çoxşaxəli fəaliyyətindən danışaraq, çıxışlarında qeyd ediblər ki, müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə çox böyük işlər görmüş Heydər Əliyev hər zaman iftixar hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir.

Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov bildirib ki, Ümummilli Lider Azərbaycanın bu günü və gələcəyi üçün möhkəm təməllər yaradıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasət və dərin islahatlar nəticəsində əldə edilən çoxsaylı uğurlar sırasında ən uca zirvədə isə 2020-ci ilin 27 sentyabrından 10 noyabr tarixinə kimi davam edən 44 günlük Vətən müharibəsində müzəffər Azərbaycan ordusunun Ermənistan üzərində qazandığı parlaq qələbə dayanır.

Tədbirin sonunda 2020-ci il tarixində möhtəşəm qələbə zamanı Şuşaya Azərbaycan bayrağını sancan həmyerlimiz, polkovnik Səbuhi Abdullayev Şuşa Rayon İcra Hakimiyyəti tərəfindən Fəxri Fərmanla təltif edilib.

# Azərbaycan Ağsaqqallar Şurasında Ulu Öndər Heydər Əliyevin anım gününə həsr edilmiş iclas keçirilib



Dekabrın 12-də Azərbaycan Ağsaqqallar Şurasında Ulu Öndər Heydər Əliyevin anım gününə həsr edilmiş iclas keçirilib.

Tədbirdə Azərbaycan Ağsaqqallar Şurasının sədr müavinləri – millət vəkili, professor Eldar İbrahimov, millət vəkili Ağalar Vəliyev, Bayram Yusifov, professor Vahid Novruzov, İdarə Heyətinin üzvləri – millət vəkili, akademik Ziyad Səmədzadə, professor Misir Mərdanov, millət vəkili, professor Aqiyə Naxçıvanlı, akademik Abel Məhərrəmov, professor Şəmsəddin Hacıyev, Şuranın Aparat rəhbəri Ramin Həsənli, baş məsləhətçi-hüquqşünas Kamal Əliyev, həmçinin Azərbaycan Ağsaqqallar Şurasının Bakı şəhəri üzrə rayon sədrləri və müavinləri iştirak ediblər.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, millət vəkili, professor Eldar İbrahimov Ümummilli Liderimizin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən danışıb. O, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Ata vəsiyyətini yerinə yetirərək bizi qalib ölkənin vətəndaşı etdiyini, 30 ildən artıq işğal altında qalan torpaqlarımızı 44 gündə azad etdiyini fəxrlə vurğulayıb. Eldar İbrahimov, həmçinin, 2023-cü il – “Heydər Əliyev İli” ilə əlaqədar ölkəmizdə görülən işlərdən, o cümlədən Azərbaycan Ağsaqqallar Şurasının fəaliyyətindən bəhs edib.

Tədbirdə Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvləri və digər natiqlər müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında, inkişafında və dünyaya tanıdılmasında Ulu öndər Heydər Əliyevin müstəsna rolundan bəhs ediblər.

# Görkəmli alim Ulu Öndər Heydər Əliyev və müasir Azərbaycan dövlətçiliyi barədə fikirlərini bölüşüb

Dekabrın 12-də Dünya TV-nin Aktual verilişində Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı xatirələrini bölüşüb. Heydər Əliyev və müasir Azərbaycan dövlətçiliyi barədə danışan Ziyad Səmədzadə bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri böyükdür. Bu xidmətlər əbədiyaşar xidmətlərdir. İllər, onilliklər, əsrlər keçəcək, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının tarixində əbədi yaşayacaqdır. Çünki onun qurduğu müstəqil Azərbaycan dövləti bu gün dinamik inkişaf edir. Ulu Öndərin arzuları uğurla həyata keçirilir və dövlətimiz gündən-günə möhkəmlənir. Akademik qeyd edib ki, Ulu Öndər Heydər Əliyev ikinci dəfə 1993-cü ildə hakimiyyətə gəlməsəydi, təbii ki, bizim müstəqilliyimiz olmayacaqdı. Bir tərəfdən erməni işğalı, digər tərəfdən qaçqın və köçkünlər problemi, respublikalararası iqtisadi əlaqələrin qırılması, ölkənin daxilində qeyri-sabit həyat Azərbaycanı müstəqilliyini itirmək təhlükəsi qarşısında qoymuşdu. O illər hamımızın yadındadır. Belə bir ağır şəraitdə vəziyyətdən çıxış yolunu axtaran Azərbaycan xalqı xilasını yalnız Heydər Əliyevin simasında görürdü. Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başladı. Akademik Z.Səmədzadə Ulu Öndərin tarixi çıxışlarını xatırladaraq, onun Azərbaycanın dövlətçilik tarixində xidmətlərini bir daha vurğulayıb.

# “Heydər Əliyev 100 - Bir millət, iki dövlətin iş dünyası” mövzusunda konfrans keçirilib








Dekabrın 9-da Bakıda Türkiyə və Azərbaycan İş Adamları Birliyinin (ATİB) təşkilatçılığı ilə “Heydər Əliyev 100 - Bir millət, iki dövlətin iş dünyası” mövzusunda konfrans keçirilib.

Türkiyə səfiri Cahit Bağçının himayəçiliyi ilə keçirilən tədbirdə Azərbaycan və Türkiyə dövlət rəsmiləri, Azərbaycandakı Türkiyə səfirliyinin nümayəndələri, deputatlar, sahibkarlıq təşkilatlarının rəhbərləri, iş adamları, idarəçilər və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı bu ilin sonunadək ölkələrimiz arasında ticarət dövriyyəsinin 7,5 milyard dollar olacağını bildirib: “Azərbaycan və Türkiyə arasında bu ilin 10 ayında 6,7 milyard dollar dəyərində ticarət əməliyyatları aparılıb. Bu rəqəmi ilin sonunadək 20 faiz artıracağıq”.

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədrinin birinci müavini Natiq Həsənov ölkələr arasındakı investisiya məsələlərinə toxunub: ***“Bu gün nəinki Türkiyənin Azərbaycana yatırmış olduğu investisiyalar, o cümlədən Azərbaycanın Türkiyəyə yatırmış olduğu investisiyalar xarici ölkələrə yatırılmış olan investisiyalarla müqayisədə birinci yerdədir. Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard dollara qədər investisiya yatırıb. O cümlədən, Azərbaycanın qeyri-neft sektoruna ən çox investisiya yatıran Türkiyə şirkətləridir”.***

Onun sözlərinə görə, infrastruktur və digər sahələrdə olan ən strateji layihələrimiz bu göstəricilərin ortaya çıxmasında baza rolunu oynayıb.

***“Bu gün Türkiyə şirkətlərinin Qarabağa investisiya yatırması üçün 111 müraciət var. Bütün bunlar onu deməyə əsas verir ki, önümüzdə müəyyən olunan hədəflər böyük nəticələr əldə etməyə səbəb olacaq. Türkiyə şirkətlərinin sektoral və sahələr olaraq təşkilatda olmaq mədəniyyəti və təcrübəsi kifayət qədər yüksəkdir və biz bu təcrübədən gələcəkdə istifadə edəcəyik”***, - deyə N.Həsənov qeyd edib.

Tədbirdə çıxış edən Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev işğaldan azad olunan Qarabağda aparılan quruculuq və bərpa işlərində ən böyük iştirakçıların məhz türk şirkətləri olduğunu bildirib: ***“Türkiyədən Azərbaycana birbaşa investisiyanın həcmi 15,2 milyard dollar təşkil edir. Bunun 11,7 milyard dolları neft-qaz sektorunun, 3,5 milyard dolları isə qeyri-neft sektorunun payına düşür”.***

O qeyd edib ki, Azərbaycan Sahibkarlar Konfederasiyası Türkiyədə fəaliyyət göstərən palataların, iş adamları dərnəklərinin Azərbaycana səfəri, onların burada əməkdaşlıq qurmaları və birgə üçüncü ölkələrə çıxmaq imkanları ilə bağlı yaxından kömək göstərir.

**Tədbirdə çıxış edən akademik Ziyad Səmədzadə** Azərbaycan və Türkiyə arasında sosial-iqtisadi əlaqələrin inkişaf və əhəmiyyətindən danışaraq, bildirib ki, Heydər Əliyev türk dünyasının daha sürətlə inkişafını arzulayırdı və dəfələrlə qeyd edirdi ki, Azərbaycanın türk dünyası ölkələri ilə iqtisadi sahədə əməkdaşlığı daha da inkişaf etməlidir, investorlar hər iki ölkənin milli maraqlarına cavab verən layihələr həyata keçirməlidirlər. O, həmçinin, əlavə edib ki, bu gün ölkələrimiz arasında işgüzar əlaqələr uğurla davam etməkdədir.

Tədbirdə çıxış edən digər natiqlər iki ölkənin biznes qurumlarının əməkdaşlığı barədə məlumat verərək, ATİB-in fəaliyyətinə uğurlar arzu ediblər.

# “Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı” mövzusunda dəyirmi masa keçirilib



Dekabrın 13-də Azərbaycan Dillər Universitetində (ADU) Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsi, Fəlsəfə və İctimai elmlər kafedrası, “Azərbaycanşünaslıq” Elmi Mərkəzinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş “Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı” mövzusunda dəyirmi masa keçirilib.

Açılış nitqi ilə çıxış edən Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsinin dekanı, professor İbrahim Kazımbəyli dəyirmi masa haqqında məlumat verib.

Universitetin rektoru akademik Kamal Abdulla Azərbaycanın inkişafının müxtəlif mərhələlərindən danışıb, hazırda dövlətimizin iqtisadi və digər istiqamətlərdə inkişafı haqqında fikirlərini bölüşüb. Bildirilib ki, bu inkişafın bünövrəsi Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub, Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir:

“Ötən illərə nəzərə saldıqda bugünkü Azərbaycanın inkişafı göz önündədir. Bu da Ümummilli Liderin Azərbaycan naminə irəli sürdüyü ideyaların ölkə Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməsinin nəticəsidir. İqtisadiyyatımızın inkişafı, iqtisadi uğurlarımız Azərbaycanın Qarabağdakı zəfərinin təntənəsini, dünya ölkələri arasındakı qürurunu bizə yaşadır".

Rektor ADU-nun Elmi Şurasının qərarı ilə çap olunan “Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycan obrazı (1993-2003)” kitabını qonaqlara təqdim edib.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, akademik Ziyad Səmədzadə Heydər Əliyevin ölkəmizin sosial-iqtisadi inkişafı naminə qarşısına qoyduğu məqsədlər, qəbul etdiyi qərarlar, gördüyü işlər barədə geniş məlumat verib.

Akademik neft strategiyası ilə sürət götürən Azərbaycan iqtisadiyyatının inkişaf dinamikasının sonrakı illərdə daha genişmiqyaslı formada davam etdiyini vurğulayıb.

Tədbir zamanı o, həmçinin müəllifi olduğu "Azərbaycan iqtisadiyyatı 100 ildə" adlı beşcildliyini universitet rəhbərliyinə təqdim edib.

Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid Ümummilli Liderin anadan olmasının 100 illiyi ilə əlaqədar keçirilmiş tədbirlərdən danışarkən, Heydər Əliyevin mətbuat sahəsinə olan diqqətindən, jurnalistlərə verdiyi yüksək dəyərdən bəhs edib.

# Азербайджан меняет энергетическую карту Евразии




(Итоги визита Президента Ильхама Алиева в Сербию)

Нынешние усилия Азербайджана по обеспечению европейского континента природным газом становятся наиболее высокоэффективной стратегией по преодолению обостряющегося энергетического кризиса в регионе. Все больше и больше стран стремятся к объединению с Азербайджаном в этой связи. Подписав соглашения о стратегическом партнерстве с девятью государствами-членами ЕС, Азербайджан закрепил отношения с третью всех стран ЕС.

Сербия и Болгария также не остались в стороне. 10 декабря в Нише состоялось официальное открытие газового интерконнектора Сербия-Болгария.

Проложенный газопровод соединит существующую сербскую сеть в Нише с болгарской сетью в Софии, преодолев расстояние в 109 км на сербской стороне. Благодаря диаметру трубы 700 мм и максимальному давлению 55 бар, ее мощность позволит ежегодно перекачивать 1,8 миллиарда кубометров природного газа, что эквивалентно 60 процентам от общего годового потребления Сербии.

Помимо Ниша, газопровод будет включать в себя еще три станции учета и регулирования газа в Белой Паланке, Пироте и Димитровграде.

Как отметил Президент Ильхам Алиев в ходе церемонии запуска проекта, инициированные и реализованные Азербайджаном проекты в значительной степени изменили энергетическую карту Европы и Азии. "Нефтепроводы Баку-Тбилиси-Джейхан, Баку-Супса сегодня доставляют азербайджанскую нефть на средиземноморский и черноморский рынки. Южный газовый коридор – крупный инфраструктурный проект протяженностью 3 500 километров – вносит огромный вклад в энергетическую безопасность Европы. Неслучайно Европейская комиссия, ее высокопоставленные лица расценивают Азербайджан как надежного партнера и панъевропейского поставщика газа. Замечу, и это, я уверен, может подтвердить и мой друг Румен, что наши поставки газа в Болгарию начались два года назад. В 2021 году было поставлено 270 миллионов кубометров газа, в прошлом году – чуть более 500 миллионов кубометров. А в этом году эта цифра приблизится к 1 миллиарду кубометров", - сказал глава государства.

Совсем недавно Азербайджан и Сербия подписали несколько важных документов, касающихся поставок природного газа.

Теперь эта страна является новым союзником Азербайджана в преобразовании европейского газового рынка. При ежегодных поставках газа в Сербию в объеме до 400 миллионов кубометров Азербайджан в общей сложности обслуживает 8 стран.

Президент Болгарии Румен Радев во время своего выступления на церемонии запуска высоко оценил Азербайджан как надежного партнера во всех аспектах.

В 2021 году поставки газа из Азербайджана в Европу достигли 8 миллиардов кубометров, а к 2022 году они уже выросли до 11 миллиардов кубометров. Целью на этот год является дальнейшее увеличение экспорта газа в регион до 12 миллиардов кубометров. В целом, ожидается, что в 2023 году объем поставок азербайджанского газа на мировой рынок достигнет 24,5 миллиарда кубометров, причем почти половина этого объема предназначена для Европы. Азербайджан планирует расширить географию поставок своего газа с 6 до как минимум 10 стран.

И теперь Сербия присоединяется к этой инициативе. Теперь, благодаря грандиозным усилиям, которые Азербайджан вложил в развитие и модернизацию важнейшей газовой инфраструктуры под руководством Президента Ильхама Алиева, Европа может начать пожинать плоды, и серьезный энергетический кризис не кажется таким неразрешимым. Дальновидная энергетическая политика главы государства, начатая в 2020 году с запуском проекта ЮГК, доказывает, что это не просто один из способов, но, возможно, наиболее успешное и подходящее решение для оказания помощи Европе в эти сложные времена.

# *Лукашенко на саммите в Дубае:* зеленая повестка бессмысленна в условиях конфронтации




Зеленая повестка в международном сотрудничестве бессмысленна в условиях конфронтации, она требует уважения суверенитета стран и безусловной справедливости. Об этом Президент Беларуси Александр Лукашенко заявил на Всемирном саммите по борьбе с изменением климата, передает корреспондент БЕЛТА.

Александр Лукашенко отметил, что Беларусь по Парижскому соглашению в полной мере выполняет взятые на себя обязательства и даже перевыполняет их.

***Лукашенко призывает международное сообщество не высказывать "озабоченности", а действовать***

"Мы оказываем бесценные "экосистемные услуги" нашему континенту, сохраняя уникальный источник кислорода - естественные болота, леса, "легкие Европы". Развиваем зеленую и атомную энергетику, минимизируя риски изменения климата. Парадоксально, но в ответ получаем новые экономические санкции, барьеры в международной торговле, ограничение доступа к технологиям. И не только мы. Пора признать: зеленая повестка бессмысленна в условиях конфронтации. Она требует уважения суверенитета стран и безусловной справедливости!" - заявил белорусский лидер.

***Лукашенко назвал первопричины климатической угрозы***

Президент подчеркнул, что нельзя давить политических оппонентов санкциями и в то же время требовать затратных для национальных экономик решений - решений, от которых зависит чистота всей атмосферы, всех грунтовых вод и мирового океана.

"И еще: как можно ожидать дорогостоящих эффективных мер по сохранению климата от стран и народов, которые до сих пор не оправились от колониального гнета?" - отметил глава государства.

**1 декабря, Дубай**
**Источник:**
**https://www.belta.by**

# “Крайне важно ускорение процесса импортозамещения”



В импорте продовольственных товаров зафиксирован рост.

Об этом сказал член комитета Милли Меджлиса (парламент) Азербайджана по экономической политике, промышленности и предпринимательству Вугар Байрамов.

«За первые 10 месяцев этого года внешнеторговый оборот Азербайджана составил 37 миллиардов 367 миллионов долларов. Экспорт составил 23 миллиарда 193 миллиона долларов, а импорт - 14 миллиардов 174 миллиона долларов. За это время импорт вырос на 4,6 процента, а экспорт снизился на 7,7 процента», - сказал Байрамов. По его словам, более низкие по сравнению с предыдущим годом цены на энергоносители снизили стоимость экспорта. Однако тенденция роста импорта сохранилась.

«То есть по сравнению с соответствующим периодом предыдущего года мы ввезли больше продукции. Импорт забирает валюту из страны, а экспорт приносит валюту. В связи с этим увеличение объема импорта нежелательно с точки зрения оттока валюты. В этот период также был отмечен рост импорта продуктов питания. Импорт говядины увеличился на 93,3 процента, сигарет - на 48,9 процента, мучных кондитерских изделий - на 12,7 процента, шоколада и шоколадных изделий - на 12,6 процента, свежих овощей - на 4,9 процента. Последние статистические данные показывают, что крайне важно ускорение процесса импортозамещения. В частности, необходимо устранить зависимость от импорта за счет расширения местного производства продуктов питания», - сказал депутат.

# Россия за то, чтобы Баку и Ереван действовали самостоятельно



Мы действительно приветствовали обоюдное стремление Баку и Еревана нормализовать отношения, заключить мирный договор.

Об этом 12 декабря, заявила на брифинге официальный представитель МИД России Мария Захарова.

«Мы приветствовали их договоренности об обмене военнопленными по формуле «всех на всех». Это способствует взаимному укреплению доверия, открывает дополнительные возможности для примирения в русле договоренности лидеров России, Азербайджана и Армении, которые были заключены в период с 20-го по 22-й год. Что касается сроков подписания армяно-азербайджанского мирного договора, то их, как мы изначально об этом говорили, должны определить сами стороны», — отметила официальный представитель МИД России.

По словам Марии Захаровой, Россия готова и далее оказывать содействие своим партнерам в выработке сбалансированного соглашения.

«Такой документ призван заложить надежный фундамент устойчивого мира и стабильности в регионе», — сказала официальный представитель МИД России.

# МВФ прогнозирует спад инфляции в Азербайджане

Международный валютный фонд (МВФ) рост ВВП Азербайджана на 2023 год прогнозирует на уровне 2,4%, в 2024-2028 годах – на уровне 2,3% в год. Касаясь текущей экономической ситуации в Азербайджане МВФ отмечает следующие факторы: замедление инфляции; высокие цены на нефть и газ поддерживали сильные внешние позиции страны; ситуация в банковском секторе продолжает улучшаться, но сохраняются определенные риски для уязвимости; замедление темпов экономического роста в 2023 году.Как сообщает «Интерфакс-Азербайджан», по прогнозам МВФ, рост ненефтяного ВВП Азербайджана в 2023 году составит 4,2%, в 2024 году – 3,6%, в 2025-2028 годах – в среднем по 3,5% в год.

Спад в нефтяном секторе в 2023 году составит 1,5%, в 2024-2028 годах – спад в среднем 0,5% в год.

По прогнозам МВФ, в 2023 году номинальный объем ВВП Азербайджана составит $76,8 млрд (в 2022 году - $78,7 млрд), в 2024 году - $79,7 млрд, в 2025 году - $82,8 млрд, в 2026 году – около 86,2 млрд, в 2027 году – $89,7 млрд, в 2028 году - $93,8 млрд.

Согласно оценкам МВФ, среднегодовая инфляция в Азербайджане в 2023 году замедлится до 9,4% с 13,9% в 2022 году, в 2024 году – до 4,7%, в 2025 году – ускорится до 5%, в 2026 году – замедлится до 4,5%, в 2027-2028 годах – до 4% в год.



## Mərkəzi Gömrük Hospitalında Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib





***12 dekabr 2023-cü il tarixində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalında Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr edilmiş tədbir keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım, rəis müavinləri İsmayıl Əfəndiyev, Fərid Əbilov, Mərkəzi Gömrük Hospitalının rəis müavini Nabil Seyidov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin və Mərkəzi Gömrük Hospitalının rəhbər işçiləri və əməkdaşları iştirak ediblər.***

Tədbir iştirakçıları ilk olaraq Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım açılış nitqi ilə çıxış edərək, dahi şəxsiyyət, böyük insan, Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli lider Heydər Əliyevin ölkəmizin müstəqilliyi və inkişafı naminə həyata keçirdiyi misilsiz xidmətlərindən, o cümlədən ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində, ölkəmizin ictimai həyatının bütün sahələrində olduğu kimi, səhiyyə sahəsində də həyata keçirdiyi islahatlardan, müstəsna töhfələrindən danışıb.

Rəis müavini Şahlar Mirqasım çıxışında bildirib: ***"Ulu öndər Heydər Əliyev həm respublikaya birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə, həm SSRİ-nin ali hakimiyyət orqanlarında təmsil olunduğu dövrdə, həm də müstəqil Azərbaycanın prezidenti kimi fəaliyyətində Vətənimizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişə xidmət edib, onun tərəqqisi üçün var qüvvəsi ilə çalışıb. Azərbaycanın ən çətin günlərində məsuliyyəti öz üzərinə götürüb, onu bir dövlət kimi tarixin ağır və sərt sınaqlarından çıxararaq, bugünkü gerçəkliyinin və işıqlı sabahının möhkəm təməlini yaradıb."***

Daha sonra Ümummilli Lider Heydər Əliyevə həsr edilmiş sənədli film izlənilib. Tədbirdə Mərkəzi Gömrük Hospitalının rəis müavini Nabil Seyidov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi Tədris Mərkəzinin mütəxəssisi Şəhla Mirzəzadə, Planlaşdırma və marketinq şöbəsinin PR üzrə mütəxəssisi Dilarə Zamanova və baş tibb bacısı Nigar Maqsudova çıxış edərək, Ulu öndər Heydər Əliyevin səhiyyə, gömrük və gənclər siyasəti sahələrində fəaliyyəti barədə geniş məlumat veriblər.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

## Dünyada su mənbələri sürətlə azalır

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkə üzrə 369 su obyektinin açılışı ilə bağlı keçirilən konfransda çıxışı zamanı deyib.

O bildirib ki, bunun müxtəlif səbəbləri var.

"Əlbəttə, əhalinin artması da su qıtlığına təsir göstərir. Yağıntının miqdarında isə heç bir dəyişiklik olmur. İqlim dəyişikliyi ilə bağlı olaraq dünyada təbii fəlakətlərin də sayı artır. Fikir verirsinizsə, son vaxtlar yanğınların, zəlzələlərin, daşqınların sayı artıb", - deyə o, əlavə edib.

Türkiyə lideri qeyd edib ki, dünyanın nizamı pozulur: "Əgər hərəkətə keçməsək, daha ağır nəticələrlə üzləşə bilərik. Sudan qənaətlə istifadə etmək lazımdır. Bu, seçim deyil, məcburiyyətdir".



## Avropada təbii qazın qiyməti düşüb

Avropada təbii qazın qiyməti bir meqavat/saat üçün 36 avroya düşüb.



Niderlandın TTF habında qazın qiyməti 6,4 faiz azalaraq 36 avro təşkil etməklə 2022-ci ilin yanvar ayı səviyyəsinə (35,9 avro) enib. İlin əvvəlindən bəri isə təbii qazın qiymətində 52,7 faiz azalma müşahidə olunub. Cari ilin yanvarında TTF-də qazın qiyməti meqavat/saat üçün 74 avro civarında idi.

## Qazaxıstan Rusiya və Çini yeni nəqliyyat marşrutu ilə birləşdirəcək

Bu barədə ölkənin nəqliyyat naziri Marat Karabayev jurnalistlərə bildirib. Nazir qeyd edib ki, marşrutun Semey şəhəri yaxınlığından keçən hissəsində, İrtış çayından gəmilərin üzüb keçə bilməsi üçün bənd tikiləcək, Tuğıl-Mayqapçağay hissəsində Çinlə sərhədə qədər dəmir yolu çəkiləcək.

Karabayev əlavə edib ki, gözlənilən yükdaşıma həcmi 2-2.5 milyon ton təşkil edir. Bununla yanaşı, Atırau çay limanı da modernləşdiriləcək və həmin portun yükdaşıma həcmi 1 milyon tondur.



## "Fitch" neft və qaz qiymətləri ilə bağlı proqnozunu yüksəldib

"Fitch Ratings" beynəlxalq reytinq agentliyi 2023-2024-cü illər üçün neft, həmçinin 2024-cü və 2026-cı illər üçün Avropada təbii qaz qiymətləri ilə bağlı proqnozunu yüksəldib.

Agentlik neft proqnozlarına yenidən baxılmasını "OPEC+"un tədarük həcmini ciddi nəzarət altında saxlamaqda davam etməsi ilə izah edib.

"Fitch" analitikləri, təbii qaz qiymətlərinin ortamüddətli perspektivdə kifayət qədər yüksək qalacağını proqnozlaşdırırlar.

Agentliyin proqnozuna əsasən, baza ssenari üzrə bu ilin sonunda "Brent" markalı neftin 1 bareli 82 ABŞ dolları, 2024-cü ildə 80 ABŞ dolları, 2025-2026-cı illərdə isə müvafiq olaraq 70 və 65 ABŞ dolları olacaq.

Proqnozlara görə, 2023-2024-cü illərdə "WTI" markalı neftin 1 bareli müvafiq olaraq 78 və 75 ABŞ dolları, 2025-2026-cı illərdə isə müvafiq olaraq 60 və 65 ABŞ dolları təşkil edəcək.

"Fitch"in proqnozuna görə, Avropada TTF (Niderland) üzrə təbii qazın qiyməti 2023-2024-cü illərdə 1000 kubfut üçün müvafiq olaraq 13 və 12 ABŞ dolları, 2025-2026-cı illərdə isə 10 və 8 ABŞ dolları təşkil edəcək.

## Bakcell dünyanın ən sürətlilərinin sürət tərəfdaşı oldu!

Ölkənin ən sürətlisi Bakcell Bakının ilk dəfə ev sahibliyi etdiyi Beynəlxalq Avtomobil Federasiyası (FIA) Prize-Giving ceremony - Mükafatlandırma mərasiminin sürət tərəfdaşı oldu.




FIA Mükafatlandırma mərasimi bir çox sürət yarışlarında qalib olan pilotların, avtomobil idmanı cəmiyyəti və azarkeşlərinin ən çox gözlədiyi tədbirlərdən biridir. Hər il fərqli ölkələrdə keçirilən tədbir bu il 5-8 dekabr tarixlərində paytaxt Bakıda baş tutur. Ənənəvi mərasimdə FIA çempionları ilə yanaşı, həmçinin karyeralarının başlanğıcında olan bacarıqlı yeni nəsil idmançılar və avtomobil idmanında misilsiz rolları olan şəxslər də yad edilir. Xatırladaq ki, sürət yarışlarına böyük maraq göstərən Bakcell 2019-cu ildən etibarən "Formula 1 Azərbaycan Qran Prisi"nin rəsmi dəstəkçisidir. Ölkənin dörd bir yanında "Ölkənin ən sürətlisi" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirən Bakcell şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.

## Qlobal ticarətin $30.7 trilyon olacağı proqnozlaşdırılır

2023-cü ildə dünya ticarətinin həcmi 2022-ci illə müqayisədə 5% azalaraq 30.7 trilyon dollar təşkil edəcək. Ticarət üçün 2024-cü il perspektivi pessimist bir baxışla qeyri-müəyyən olaraq görülür.



Bu barədə Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransının (UNCTAD) hesabatında deyilir.

Qeyd olunub ki, qlobal ticarət 2022-ci ilin ortalarından bəri mənfiyə doğru gedib. Bu da əsasən 2023-cü ilin ilk üç rübündə enməkdə davam edən mal ticarətindəki əhəmiyyətli azalma səbəbindən baş verib.

Qlobal ticarətin 2023-cü ildə təxminən 30.7 trilyon dollar olacağı proqnozlaşdırılır ki, bu da 2022-ci ilin ən yüksək göstəricisindən təxminən 1.5 trilyon dollar və ya 5% azalma deməkdir.

2023-cü ildə mal ticarətinin təxminən 2 trilyon dollar və ya 8% azalacağı, xidmətlər ticarətinin isə təxminən 500 milyard dollar və ya 7% artacağı gözlənilir.

Hesabata əsasən, 2024-cü il üçün qlobal ticarət dünyagörüşü olduqca qeyri-müəyyən və ümumiyyətlə pessimist olaraq qalır. Belə ki, davam edən geosiyasi gərginlik yüksək borc səviyyələrinin və geniş yayılmış iqtisadi qeyri-sabitliyin qlobal ticarət modellərinə mənfi təsir göstərəcəyi gözlənilir.




**Azəri Light və Brent markalı neftin bir barelinin 7-13 dekabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq: +99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**